

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

19 mart 2025-ci il
Çərşənbə

1933-cü ildən çıxır
№ 11 (3723)

# Bakıda dünya düzəni...

## Azərbaycan növbəti beynəlxalq foruma evsahibliyi etdi

**Son illərdə Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi tədbirlərə olan maraq ildən-ilə artmaqdadır. Bu, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin dünya miqyasında nüfuzunun artdığını və onun təşkil etdiyi forumların, konfransların və müzakirələrin beynəlxalq səviyyədə geniş təqdirlə qarşılandığını göstərir.**




Mərkəzin bu cür vacib platformaya çevrilməsi, onun beynəlxalq miqyasda böyük bir əhəmiyyət daşımasını təmin edir.

Martın 13-də Bakıda, "Gülüstan" sarayında keçirilən XII Qlobal Bakı Forumu, Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə başladı. Forumun əsas mövzusu "Dünya düzəninin yenidən düşünülməsi: Çağırışların fürsətə çevrilməsi" idi. Bu tədbir, dünyanın müxtəlif ölkələrindən dövlət və hökumət nümayəndələri, ekspertlər və akademiklərin iştirakı ilə dünya düzəninin dəyişən şəraitində ortaya çıxan çağırışların necə fürsətlərə çevrilə biləcəyini müzakirə etmək məqsədi daşıyırdı.

XII Qlobal Bakı Forumunun açılış mərasimində çıxış edən Prezident İlham Əliyev vacib məsələlərə diqqət çəkib, Azərbaycanın bərpaolunan enerji potensialından danışıb, Avropanınn enerji təhlükəsizliyində ölkəmizin mühüm mövqeyindən bəhs edib. Ermənistan-Azərbaycan münasibətlərinə xüsusilə toxunan dövlətimizin başçısı qeyd edib ki, Ermənistanın işğalı və təcavüzü nəticəsində Azərbaycan xalqının çəkdiyi əzab-əziyyətləri yaddan çıxara bilmərik və çıxarmayacağıq. "Biz 613 insanın, onlardan 60-dan çox uşağın və 100-dən artıq qadının ermənilər tərəfindən qətlə yetirildiyi Xocalı soyqırımını yaddan çıxarmayacağıq. Lakin, eyni zamanda, biz gələcəyə nəzər salmalıyıq. Biz Cənubi Qafqazda sülhə nail olmalıyıq. Bu baxımdan, Azərbaycan sülh prosesinin təşəbbüskarı olub. Əslində, Azərbaycan hətta bu gün Ermənistanla müzakirə olunan və əsasən razılaşdırılmış sülh sazişi layihəsinin, həmin sülh müqaviləsinin müəllifidir. Bəndlərin əksər hissəsi razılaşdırılıbdır", - deyə Prezident bildirib. Son illərdə Azərbaycan - ABŞ əlqələrinin pozulmasına da diqqət çəkən Prezident İlham Əliyev qeyd edib ki, Antoni Blinkenin Azərbaycana aid siyasəti, əslində, 30 il qurduğumuz ABŞ-Azərbaycan münasibətlərini heçə endirdi: "Biz hər zaman ABŞ-ın çox etibarlı, yaxın tərəfdaşı olmuşuq. Biz onlara lazım olanda onlarla idik. Biz onlara İraqda lazım olanda, qoşunla onlarla idik. Biz onlara Əfqanıstanda lazım olanda, 2001-ci ildə Əfqanıstanda əməliyyatlara qoşulan ilk qeyri-NATO ölkələrindən idik və oradan sonuncu çıxdıq. Lakin biz çıxandan sonra onlar bizə sanksiya tətbiq etdilər".

Dövlət başçısı xatırladıb ki, bu, Azərbaycanda böyük məyusluq yaratdı: "Mən onların bəzi nümayəndələrinə söylədim ki, biz sizə necə inana bilərik? Biz sizə lazım olanda sanksiyanı dayandırırsınız. Biz sizə artıq lazım olmayanda, sanksiyanı yenidən tətbiq edirsiniz. Onda uzunmüddətli münasibətləri sizinlə necə qura bilərik? Beləliklə, çox maraqla baxırıq. Birincisi, ona görə ki, biz Azərbaycanda Dövlət Departamentinin bütün səylərinə baxmayaraq, ABŞ-Azərbaycan münasibətlərini uçurumdan tam xilas etdik. İkincisi, ümid edirik ki, yeni Administrasiya ilə Cənubi Qafqaz, sülh, təhlükəsizlik, antiterror əməliyyatları, regionumuzun müasir inkişafı üçün hər zaman vacib olmuş güclü tərəfdaşlığımızı yenidən quracağıq".

# Prezidentlər razılaşdılar

## Moskvada görüş olacaq

Martın 15-də Moskvada qeyri-rəsmi görüş keçirən Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon Azərbaycan Prezidenti İlham Əliyevə zəng ediblər.

Prezidentlər dövlətlərarası münasibətlərin gələcək inkişafına dair fikir mübadiləsi aparıblar. Dövlət başçıları Moskvada Qələbənin 80 illiyi ilə bağlı keçiriləcək tədbirlərdə görüşəcəkləri barədə razılaşıblar.

# Əməkdaşlıq genişləndirilir

## Hərbi sahədə əlaqələr güclənir

Prezident İlham Əliyev martın 17-də Bosniya və Herseqovinanın Nazirlər Şurası sədrinin müavini və müdafiə naziri Zukan Helezi qəbul edib.

Söhbət zamanı Azərbaycan ilə Bosniya və Herseqovina arasında müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb. Görüşdə əməkdaşlığımızın perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər barədə müzakirələr aparılıb.

# Prezident müsahibə verib

## Təhlükəsizlik mexanizmləri yaratmalıyıq

"Onilliklər ərzində Cənubi Qafqaz qarşıdurma və düşmənçilik bölgəsi olub. Hazırda nisbətən sakit dövrdəyik və biz diqqətimizi buna yönəltməliyik. Biz növbəti hərbi qarşıdurmanı istisna edəcək əhatəli təhlükəsizlik mexanizmləri yaratmalıyıq və sovet dövründə olduğu kimi qonşuluq şəraitində yaşamağa çalışmalıyıq".

Prezident İlham Əliyev martın 13-də "Euronews" televiziyasına müsahibəsində belə deyib.

# Rəsmi xəbərlər

- Prezident İlham Əliyev martın 17-də "Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təmin edilməsi haqqında Fərman imzalayıb.
- Azərbaycan Respublikası ilə Fələstin Dövləti arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafında xüsusi xidmətlərinə görə Nasir Əbdülkərim Əbdürrəhman "Dostluq" ordeni ilə təltif edilib. Dövlət başçısı bununla bağlı martın 15-də Sərəncam imzalayıb.
- Prezident İlham Əliyev 22 iyun 2021-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"ndə dəyişiklik edib. Dövlət başçısı bununla bağlı martın 14-də Fərman imzalayıb.
- Prezident İlham Əliyev martın 12-də "Hava daşımaları üzrə rəsmiyyətin sadələşdirilməsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb.
- Azərbaycanın ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Eldar Rza oğlu İbrahimov 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib. Prezident İlham Əliyev bununla bağlı martın 11-də Sərəncam imzalayıb.

# Daxili işlər orqanlarının və daxili qoşunların şəxsi heyətinə



**Hörmətli həmkarlar!**

Novruz bayramı münasibətilə Sizi, hörmətli veteranlarımızı, şəhid olmuş əməkdaşlarımızın və hərbi qulluqçularımızın ailə üzvlərini ürəkdən təbrik edirəm.

Özündə xalqımızın çoxəsrlik mədəni keçmişini və zəngin mənəviyyatını dolğun təcəssüm etdirən bu Novruz bayramı da yurdumuzun hər bir yerində xoş ovqatla qarşılanır, eyni zamanda günbəgün inkişaf edib qüdrətlənən ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası şəraitində keçirilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurlu dövlət siyasəti sayəsində işğaldan azad edilmiş şəhər və rayonlarımızın yenidən canlandırılması və əzəli torpaqlarımıza əbədi qayıdış naminə aparılan quruculuq işləri vətəndaşlarımızın bayram sevinclərini və qurub-yaratmaq əzmini daha da artırır. Öz növbəsində parlaq Qələbənin böyük qürurunu yaşayan, xalqa və dövlətə sədaqətli xidməti möhtərəm Prezident tərəfindən yüksək qiymətləndirilən əməkdaşlarımız və hərbi qulluqçularımız da bu bayram günlərində insanların dinc həyatını, qanuni mənafelərini, hüquq və azadlıqlarını qətiyyətlə qoruyur, ölkəmizin davamlı tərəqqisinin mühüm şərtlərindən olan asayişin və təhlükəsizliyin möhkəmlənməsinə əhəmiyyətli töhfələr verirlər. Qanunla müəyyən edilmiş mühüm vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəyinizə əminliyimi ifadə edərək həmınıza möhkəm cansağlığı, ailə səadəti, xoşbəxtlik, xidmətdə və şəxsi həyatda uğurlar arzulayıram.

**Bayramınız mübarək!**

*Vilayət Eyvazov*
*Azərbaycan Respublikasının daxili işlər naziri*
*general-polkovnik*

Sabitliyimiz nailiyyətimizdir 2

Təbliğat həm də "Açıq qapı"dan başlayır 3

Əsas şərtlərdən biri ideoloji hazırlıqdır 3

Ağrıdan baxanda Vətən görünür 4

# RESPUBLİKA XƏBƏRLƏRİ

### Sülh razılaşdırıldı

Azərbaycanla Ermənistan arasında sülh sazişi üzrə danışıqlar bitib. Ermənistanla sülh sazişi üzrə danışıqların bitməsi ilə bağlı Azərbaycan XİN bəyanat yayıb. Bəyanatda Azərbaycan və Ermənistan arasında sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin mətni üzrə danışıqların yekunlaşdığı məmnunluqla qeyd olunub.

### Qayıdış sürətlənəcək

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq Qarabağ və Şərqi Zəngəzura qayıdanların sayı bu il 40 minə, gələn il isə 140 minə çatacaq. Həmin ərazilərin qısa müddətdə bərpası və yenidən qurulması Azərbaycanın gücünün, ölkə Prezidentinin rəhbərliyi ilə həyata keçirilən iqtisadi siyasətin nəticəsidir.

### Qarabağa nə qədər vəsait xərclənib?

2021-2024-cü illərdə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,35 milyard manat vəsait ayrılıb. Baş nazir Əli Əsədov Milli Məclisdə çıxışında 2025-ci ildə bu istiqamətdə 4 milyard manat vəsait ayrılması nəzərdə tutulduğunu deyib.

### Yeni kameralar quraşdırılıb

Ötən il "Təhlükəsiz şəhər" layihəsi çərçivəsində respublika üzrə daha 508 nöqtədə 1,9 min, o cümlədən işğaldan azad olunmuş ərazilərdə 79 nöqtədə 227 videomüşahidə kamerası quraşdırılıb. Milli Məclisin plenar iclasında müzakirəyə çıxarılan hökumətin hesabatına əsasən, hazırda ölkə üzrə ümumilikdə 5,3 min nöqtədə 16,6 min videomüşahidə kamerası (Bakı şəhərində 3,5 min nöqtədə 11,1 min kamera) istismar olunur.

### Yollar yenidən qurulub

Ötən il Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ümumi uzunluğu 3 032,4 kilometr təşkil edən yol salınıb. Bu barədə Nazirlər Kabinetinin 2024-cü ildə fəaliyyəti haqqında hesabatda bildirilir. Sənədə əsasən, ötən il 35 avtomobil yolunun layihələndirilməsi və tikintisi yerinə yetirilib, o cümlədən respublika əhəmiyyətli 875,4 kilometr və yerli əhəmiyyətli 2 157 kilometr yol salınıb.

### Torpaqlar minalardan təmizlənir

Ötən il kənd təsərrüfatına yararlı 23 min hektara yaxın ərazi minalardan təmizlənib.Eləcə də 592,5 hektarı nəqliyyat, 18232 hektarı yaşayış infrastrukturu, 2327,5 hektarı energetika, 18490,1 hektarı isə digər layihələr üzrə əraziləri əhatə edib.

### Əhalinin sayı açıqlanıb

Ölkə əhalisinin sayı ilin əvvəlindən 2 935 nəfər və ya 0,03 faiz artaraq 2025-ci il fevral ayının 1-i vəziyyətinə 10 milyon 227 min 824 nəfərə çatıb. Bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb. Qeyd olunub ki, əhalinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

### Fərqlənmə nişanları onlayn veriləcək

Aprelin 1-dən avtonəqliyyat vasitələri ilə sərnişin daşımaları həyata keçirən hüquqi və fiziki şəxslərə “Fərqlənmə nişanı” və “Xüsusi fərqlənmə nişanı” yalnız onlayn qaydada https://e-xidmet.ayna.gov.az/ portalı üzərindən veriləcək. Bu barədə AYNA-dan bildirilib.

### Muzdla işləyənlərin əməkhaqqı artıb

Bu ilin yanvar ayında Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı ötən ilin eyni dövrünə nisbətən 12,8 % artaraq 1 063 manat təşkil edib. Bu il fevralın 1-nə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 757 min nəfər olub, onlardan 879,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 877,5 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

### Qızıl istehsalı artıb

2025-ci ilin yanvar-fevral aylarında Azərbaycanda 478.3 kq qızıl, 776.6 kq isə gümüş istehsal edilib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə ölkədə qızıl istehsalı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 81.4%, gümüş istehsalı isə 36.8% artıb. Qeyd edək ki, 2025-ci il mart ayının 1-nə Azərbaycanda qızıl və gümüş üzrə hazır məhsul ehtiyatı müvafiq olaraq 160.4 kq və 668.9 kq təşkil edib.

# Sabitliyimiz nailiyyətimizdir

## Azərbaycan bütün parametrlərdə region ölkələrini qabaqlayır

**Azərbaycanın əldə etdiyi nailiyyətlər onu Cənubi Qafqazın şəriksiz liderinə çevirib. Sürətli iqtisadi inkişafı, aparılan sosial-mədəni və siyasi islahatlar, qlobal enerji təhlükəsizliyi sahəsində oynadığı rolu ölkəmizi regionda xeyli önə çıxarıb. İctimai sabitliyin yüksək səviyyədə qorunması isə həm bütün bu uğurların təməlini təşkil edir, həm də geosiyasi çəkimizi bir qədər də artırır.**









Bu uzun illərdir özünü ən bariz şəkildə mötəbər forumların, idman yarışlarının, beynəlxalq siyasi görüşlərin region ölkələri arasında məhz Azərbaycanda keçirilməsi ilə təsdiqləyir. Yəqin ki, belə tədbirlərin sabitlik məsələsi tam həll olunmuş ölkələrdə keçirildiyini bilməyən yoxdur.

Bu günlərdə “Global Terrorism Index 2025” (GTI) hesabatı ilə dövlətlərin terror təhlükəsinə görə növbəti reytinq sıralanması təqdim edilib. Beynəlxalq akademik institutlar, Birləşmiş Millətlər Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD), Dünya Bankı və digər beynəlxalq təşkilatlar üçün istinad mənbəyi kimi çıxış edən “Global Terrorism Index” hesabatları İqtisadiyyat və Sülh İnstitutu (Institute for Economics and Peace - İEP) tərəfindən dövri olaraq açıqlanır.

Hesabata əsasən, Azərbaycanın nəticələri əvvəlki illərlə müqayisədə daha da yaxşılaşıb. Ölkəmiz terror təhlükəsi üzrə qeyd olunan sıralamada “0.233” indekslə 2024-cü illə müqayisədə (89) bir reytinq də yüksələrək 2025-ci ildə 90-cı yerdə qərarlaşmaqla, 1-dən 100-dək artan mümkün reytinq həddində dünyada terrorla bağlı ən təhlükəsiz ölkələrdən biri kimi yüksək reytinqə sahiblənib.

### Rəqəmlərin təsdiqlədiyi gerçəklik

Diqqətli oxucularımız xatırlayar ki, ötən il Avropa Şurasının "Ekspertlər Komitəsi"nin (MONEYVAL) ölkəmiz üzrə son 5 il üzrə qiymətləndirmə nəticələrində Azərbaycanın cinayətlərlə mübarizədə yüksək səviyyədə effektivliyə nail olduğu və cinayətlərin araşdırılmasının uğurla aparıldığı qeyd olunurdu. İtaliyanın nüfuzlu SWG analitik agentliyinin Azərbaycanda parlament seçkiləri ərəfəsində apardığı sosial araşdırmada isə respondentlərin 80 faizinin Azərbaycanda cinayətkarlıqla mübarizənin səviyyəsindən razı olduğu, 60 faizə yaxınının isə son dərəcə müsbət qiymət verdiyi bildirilirdi.

Bu yaxınlarda Media Təhlil Mərkəzi də Dövlət Statistika Komitəsinin yaydığı rəsmi məlumatlar əsasında cinayətkarlıqla mübarizəni təhlil edib. Qurumun təhlilinə ona görə xüsusi yer ayırırıq ki, cinayətkarlıqla mübarizənin nəticəsində yalnız polisin deyil, üçüncü tərəfin təqdimatında da müsbət tendensiyanın davam etdiyi görünsün və obyektiv qənaət hasil olunsun.

Aparılan təhlil zamanı məlum olub ki, ötən il ölkə üzrə qeydə alınan cinayət hadisələrinin sayı əvvəlki ilin göstəricilərinə nisbətən 9,3 faiz azalıb. Son beş ildə ən az cinayət hadisəsi 2020-ci ildə (26 min 4) qeydə alınıb. Həmin il dünyada və Azərbaycanda davam edən COVID-19 pandemiyası ilə bağlı tətbiq olunan sərt məhdudiyyətlər cinayət hadisələrinin sayının azalmasına da səbəb olub.

Ötən il isə qeydə alınan cinayət hadisəsinin 59,42 faizini “az ağır” dərəcəli cinayətlər təşkil edib. Cinayətlərin struktur təhlilindən aydın olur ki, “böyük ictimai təhlükə törətməyən” cinayətlər ən yüngül hal sayılır və ötən il belə hadisələr ümumi cinayətlərin 26,41 faizini təşkil edib. Ən ağır hüquq pozuntusu sayılan və daha ciddi cəza tədbirləri nəzərdə tutulan “xüsusilə ağır” cinayətlərin payı isə ümumi statistikanın 1,88 faizini təşkil edib. Son bir ildə sayı ən çox azalan cinayətlər “ağır” dərəcəli cinayət hadisələri olub. Belə cinayət hadisələrinin sayı 2023-cü ilin göstəriciləri ilə müqayisədə 22,8 faiz və ya 1 213 cinayət azalaraq 4 min 101-ə bərabər olub.

### Cənubi Qafqazın ən təhlükəsiz ölkəsiyik

Cənubi Qafqaz ölkələrinin Dövlət Statistika komitələrinin rəsmi internet resurslarından əldə edilən məlumatlara əsasən, 2024-cü ildə regionun hər üç ölkəsində cinayət hadisələrinin sayında azalma müşahidə olunsa da, faiz nisbəti ilə ən çox azalma Azərbaycanda qeydə alınıb. Azərbaycan həm ərazi, həm də əhali sayı baxımından regionun ən böyük ölkəsi olsa da, ölkəmizdə qeydə alınan cinayət hadisələrinin sayı digər iki ölkə (Gürcüstan və Ermənistan) ilə müqayisədə daha aşağıdır.

Məlumat üçün bildirək ki, 2024-cü ildə Azərbaycanda cinayət hadisələrinin sayı 2023-cü ilin göstəricilərinə nisbətən 9,3 faiz, Gürcüstanda 7,8 faiz, Ermənistanda isə 1,1 faiz azalıb.

*Rəşad Mehtiyev*

# Məqsədimizə çatırıq

## Polisin çağırışları vətəndaşlara inam aşılayır

Azərbaycanda cinayətlərin çox az hissəsi odlu silahla törədilir. Odlu silah tətbiq etməklə kimisə xəsarət yetirmə və ya öldürmə hadisələri əsasən ov tüfəngindən qaynaqlanır. Bunun da bir qismi silahla ehtiyatsız davranış nəticəsində meydana gəlir. Əlbəttə, bu çox yaxşı haldır və dünyanın hansısa ölkəsində silah tətbiq etməklə kütləvi hücum xəbərlərini eşidəndə Azərbaycandakı bu reallıq öz əhəmiyyətini xüsusi ilə qabarıq göstərir.

Demək ki, ölkəmizdə polisin qanunsuz silahların aşkar edilib götürülməsi istiqamətində həyata keçirdiyi axtarışları və profilaktik tədbirləri əsas etibarı ilə öz məqsədinə yaxınlaşıb. Xüsusən odlu silahın könüllü təhvil verilməsi istiqamətində aparılan maarifləndirici tədbirlər və çağırışlar vətəndaşlara inam aşılayaraq etimadı gücləndirmə bildi və bu gün də silahların təhvil verilməsi öz tempini saxlayır.

Dünyada tam dekriminallaşmış cəmiyyət yoxdur, lakin Azərbaycan nümunəsində olduğu kimi, məsələn, odlu silahlarla törədilən cinayətlərin səviyyəsində minimum nəticəni saxlama örnəkləri var.

Ancaq, şübhəsiz ki, məsələ bununla bitmir. Polis cinayətə zəmin yarada biləcək ən kiçik ehtimalları düşünmək, riskləri qarşısını almaq və təhdidləri zərərsizləşdirməklə vəzifələndirilib. Ona görə ölkəmizdə odlu silahların aşkar edilməsi ilə bağlı əməliyyat-axtarış tədbirləri ara vermədən davam etdirilir.

Cari ilin yanvarında Nazirlikdə keçirilmiş Kollegiya iclasında odlu silahlarla bağlı olduqca maraqlı məlumat açıqlandı. Hesabata görə, ötən il qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 527 fakt müəyyən edilib, həmin cinayətlərə görə 247 nəfər tutulub. Ümumilikdə isə 7.227 odlu silah və 1 milyona yaxın sursat aşkarlanıb. Göründüyü kimi, silahı könüllü təhvil verməyən vətəndaş hüquqi məsuliyyəti gözə almalı və nəticəsinə də qatlaşmalıdır.

Zənnimizcə, vətəndaşların bu mövzu çərçivəsində nəzərə almalı olduqları həssas nüanslardan biri də odlu silahın satılması cəhdləridir. Elə bu yaxınlarda qanunsuz saxlanılan odlu silah-sursatın əməliyyat yolu ilə aşkar edilməsi istiqamətində tədbirlər həyata keçirən Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları bir şübhəlini tutdular. Əvvəllər də dəfələrlə məhkum olunmuş 49 yaşlı Mübariz Bəşirov “Kalaşnikov” markalı avtomatı, həmin silaha məxsus daraq və 29 ədəd patronu satmaq istəyib.

Bu, ilk belə hal deyil. Hər il belə faktlarla rastlaşırıq. Potensial cinayət aləti olan qanunsuz silahı satmaq da, onu gəzdirmək, saxlamaq kimi Cinayət Məcəlləsində hüquqi məsuliyyətə səbəb olan əməl kimi tövsif edilib. Ancaq atıcı silahları satmağın mənəvi məsuliyyəti də var və heç də hüquqi çəkidən az deyil. Aydın məsələdir ki, heç kim avtomatı quş vurmaq üçün almır. Satılan avtomatın, tapançanın qatı cinayətkarın, lap elə terror həyata keçirmək istəyən şəxsin və ya şəxslərin əlinə keçməyəcəyi nə məlumdur? Silah satmaq sadəcə bir fakt deyil, daha ağır nəticələr doğura biləcək əməldir və buna görə hər bir vətəndaş polislə bu məsələdə həmrəyliyini hər an göstərməlidir.

*R.Baxşəlioğlu*

# Mülki silahlarla bağlı hüquq dəyişir

## Onlara mülki odlu silah əldə etmək hüququ verilir

Azərbaycanda 21 yaşına çatmış vətəndaşlara mülki odlu silah əldə etmək hüququ verilir.Bu məsələ Milli Məclisin martın 7-də keçirilən iclasında müzakirəyə çıxarılmış Cinayət Məcəlləsinə və “Xidməti və mülki silah haqqında" Qanuna dəyişiklik edilməsi barədə qanun layihəsində əksini tapıb.

Qanun layihəsi silahla, döyüş sursatı, partlayıcı maddələr və qurğularla davranma, onların dövriyyəsi sahəsində ictimai təhlükəsizliyin gücləndirilməsi məqsədi daşıyır. Layihəyə əsasən, “Xidməti və mülki silah haqqında" Qanunun 2.1. 7-ci maddəsinin I hissəsinə "mülki silah" sözlərindən sonra "(odlu silah istisna olmaqla)" sözləri və "Azərbaycan Respublikasında iyirmi bir yaşına çatmış vətəndaşların mülki odlu silah əldə etmək hüququ vardır." məzmununda ikinci cümlə əlavə edilir.

Layihəyə əsasən, Cinayət Məcəlləsinin 228-ci maddəsinə təklif edilən dəyişiklikdə qanunsuz olaraq odlu silahı, onun komplekt hissələrini, döyüş sursatını (yivsiz odlu ov silahı və həmin silah üçün döyüş sursatı istisna olmaqla), partlayıcı maddələri və qurğuları satma həmin Məcəllənin qüvvədə olan 228.1-ci maddəsindən çıxarılaraq, bu əməlin ayrıca kriminallaşdırılması təklif edilir. Eyni zamanda, bu əmələ görə daha ağır sanksiya nəzərdə tutulur. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

# Yaşı əsri haqlayan, xatirəsi anılan polkovnik

## Ulu öndər onun Vətən qarşısında xidmətlərinə böyük dəyər verirdi

**Azərbaycan polisinin tarixində adı sayğı ilə xatırlanan şəxsiyyətlərdəndir Azərbaycan SSR daxili işlər nazirinin müavini Yusif Hüseynağa oğlu Kərimov. Hələ də tanıyanların, rəhbərliyi altında xidmət edənlərin qəlbində dərin iz buraxmış xatirələri dünəni, keçmişi tərənnüm etsə də yoxluğunu hiss etdirmir. Demək yaxşılıq insanı diri saxlayır, duru saxlayır deyimi bütün zamanlar üçün keçərli imiş.**

2025-ci ildə anadan olmasından 100 il ötən daxili xidmət polkovniki Yusif Kərimovu tanımaq və tanıtmaq estafeti bu gün bizlərindir. Sırasında Vətənə,



xalqa, dövlətə xidmət etdiyimiz qurumun dayaqlarını möhkəmləndirən, ona xalqın etibarını, etimadını qazandıran örnək insanların ömür yolunu öyrənmək sözün əsl mənasında taleyimizin bizə töhfəsidir.

O, 1925-ci il fevralın 21-də Bakı şəhərində doğulub. 1942-ci ildə ordu sıralarına hərbi xidmətə çağırılaraq Böyük Vətən Müharibəsində iştirak edib. Qafqaz uğrunda gedən döyüşlərdə fərqləndiyinə görə Y.Kərimov "Qafqazın müdafiəsinə görə" medalı ilə təltif olunub. Daha sonra müharibədə göstərdiyi qəhrəmanlığa görə "Qırmızı ulduz" ordeni ilə mükafatlandırılıb. Böyük Vətən Müharibəsi başa çatdıqdan sonra əmək fəaliyyətini Mingəçevir şəhərində davam etdirib. Dürüstlüyü, dəqiqliyi və işinə yanaşması gələcək uğurlarının təməli olub. Rəhbərlik tərəfindən SSRİ Müdafiə Nazirliyinin Hərbi-Siyasi Akademiyasında ali təhsil almağa göndərilən Y.Kərimov 1951-ci ildə təhsilini başa vurduqdan sonra Sovet ordusunda müxtəlif vəzifələrdə çalışaraq Uralda yerləşən Havadan Müdafiə diviziyasının komandirinin müavini, siyasi şöbəsinin rəisi vəzifəsinə podpolkovnik rütbəsinə qədər yüksəlib.

O, 1969-cu ildə ordu sıralarından tərxis olunaraq daxili işlər orqanlarında çalışmağa başlayıb. Y.Kərimov 06.05.1970-ci il tarixdə Bakı Şəhəri İcrayyə Komitəsinin Daxili İşlər İdarəsinin rəisi təyin olunub.1978-ci ilin iyununda isə nazir müavini vəzifəsinə irəli çəkilib.

Məhz bu məqam 1969-cu ildən Azərbaycana rəhbərlik etmiş ulu öndər Heydər Əliyevin ona xüsusi diqqətinin və fəaliyyətinə verilən dəyərin bariz nümunəsidir.

Xidmət illərində qarşıya qoyulan tələblərin yerinə yetirilməsi üçün səylərini əsirgəməyib, kriminogen durumun nəzarətdə saxlanılmasına, sabitliyin, əmin-amanlığın qorunmasına öz töhfələrini verib, bütün sahələrdə olduğu kimi, respublika daxili işlər orqanlarında da azərbaycanlı gənclərin xidmətə cəlb olunmasını qarşısına məqsəd qoyan ölkə rəhbəri ulu öndər Heydər Əliyevin etibarlı silahdaşına çevrilməyi bacarıb.

Y.Kərimov xidmət müddətində "Qırmızı Əmək Bayrağı", "Şərəf nişanı" ordenləri, "Əmək veteranı", "Əməkdə fərqlənməyə görə", "Qüsursuz xidmətə görə" 3-cü, 2-ci, 1-ci dərəcəli, "Böyük Vətən müharibəsində qələbənin 20 illiyi münasibəti ilə", "SSRİ Silahlı Qüvvələrinin 40 illiyi münasibəti ilə", "Sovet milisinin 50 illiyi münasibəti ilə" medalları ilə, eləcə də "Milis əlaçısı" və "DİN-in əməkdar işçisi" döş nişanları ilə təltif edilib.

Azərbaycan SSR daxili işlər nazirinin müavini daxili xidmət polkovniki Yusif Hüseynağa oğlu Kərimov 1987-ci il martın 18-də vəfat edib.

*T.Hafiz*

# Əsas şərtlərdən biri ideoloji hazırlıqdır

## Qarşıya qoyulan tapşırıqların icrası diqqətdə saxlanılır

Şəxsi heyət arasında ideoloji və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi, gənc əməkdaşların sosial təşəbbüskarlığının artırılması, onların dövlətçilik, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, xidmətdə olduqları və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına riayət etmələrinin təmin edilməsi, pis vərdişlərlə mübarizənin gücləndirilməsi DİN rəhbərliyinin diqqət mərkəzindədir.

Bu məqsədlə, Sumqayıt Şəhər və Abşeron Rayon Polis İdarələrinin, o cümlədən Sumqayıt Şəhər və Abşeron Rayon Mühafizə İdarələrinin şəxsi heyəti ilə görüşlər keçirilib.

Görüşlərdə DİN Şəxsi Heyətlə İş İdarəsinin əməkdaşları polisin cəmiyyətdə nüfuzunun artırılması üçün xidməti konfidensiallığı qorumanın zəruriliyi, korrupsiya hallarına qarşı mübarizə, sosial şəbəkələrin cəmiyyətin şüuruna mənfi təsir etmə imkanları və yarada biləcəyi təhlükələr barədə məlumat veriblər. Xidmət zamanı və xidmətdən kənar vaxtlarda etik davranış qaydalarına, xidməti intizama və qanunçuluğa əməl etməyin vacibliyi də gənclərin diqqətinə çatdırılıb.

Növbəti görüşlərin respublikanın digər şəhər və rayonlarının polis orqanları və mühafizə hissələrində davam etdirilməsi nəzərdə tutulur.

# Tədbir uşaqlara həsr olunmuşdu

## QHT təmsilçiləri uşaq əməyinin istismarından danışdılar

İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi və İnsan Alverinə Qarşı Mübarizə üzrə QHT



Koalisiyasının birgə əməkdaşlığı çərçivəsində "Uşaq əməyinin istismarı və onun müəyyən edilməsi üzrə indikatorlar" mövzusunda bir günlük təlim keçirilib. Təlimdə İnsan alverinə qarşı mübarizə üzrə QHT Koalisiyasının üzvləri aktiv iştirak ediblər.

Maraqlı müzakirələr və diskussiya şəraitində keçən təlimdə DİN-in İAQMBİ şöbə müdiri Araz Babayev, İnsan Alverinə Qarşı Mübarizə üzrə QHT Koalisiyasının sədri Mehriban Zeynalova, Qadın Təşəbbüsü və Sosial Problemlərin Həllinə Yardım İB-nin təlimçisi Günel Ələkbarova "İnsan Alveri fenomeni", "İnsan alverinin forma və vasitələri", "Uşaq alverinin qarşısının alınmasında Azərbaycan Respublikasının beynəlxalq öhdəlikləri", "Uşaq istismarının növləri", "İşəgötürən nəyi bilməlidir?", "Uşaqlara qarşı kiber təqib və zorakılıq", "Uşaq istismarının psixoloji təsirləri", "İdentifikasiyanın əhəmiyyəti", "Ümumi indikatorlar", İlkin tanınma indikatorları və digər mövzular ətrafında fikir və rəylərini bildirib, iştirakçıların suallarını cavablandırıblar. Təlim inteaktiv keçməklə yanaşı, qrup işlər, beyin hücumları və digər alətlərdən istifadə edilərək aparılmışdır.

Məlumat üçün qeyd etmək lazımdır ki, Koalisiya üzvlərinin gələcəkdə təqdim edilən mövzu üzrə təlimləri aparması məqsədilə, üzvlər üçün Mehriban Zeynalova və Günel Ələkbərova tərəfindən təlim modulu hazırlanıb.

# Narkomaniya "ailəvi qırğın silahıdır"

## İnsanlıq əleyhinə olan narkomaniya ilə mübarizə də vətəndaşlıq missiyamızdır

Paytaxt və bölgələrdə polis əməkdaşları gəncləri zərərli vərdişlərdən, xüsusilə narkomaniyadan qorumaq məqsədilə maarifləndirici görüşləri davam etdirirlər.

Növbəti belə tədbir Xətai Rayon Polis İdarəsinin təşkilatçılığı ilə 264 nömrəli tam orta məktəbdə keçirilib. Məktəbin direktoru Mehriban Mustafayevə cəmiyyətin hərəkətverici qüvvəsi olan gəncliyi və sabahına böyük ümid bəslədiyimiz uşaqları zərərli vərdişlərdən qorumaq üçün Azərbaycan polisinin çox böyük fədakarlıqlara imza atdığını diqqətə çatdırıb. O, narkotiklərlə mübarizədə canlarından keçən polis əməkdaşlarının adlarının heç zaman unudulmayacağını qeyd edib.

Rayon Polis İdarəsinin rəisi polis polkovniki Vaqif Müslümov narkomaniyanın və narkotacirlərin əsas hədəfinin gənclər olduğunu vurğulayıb. O, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəy-



yən edilərək məsuliyyətə cəlb olunmaları istiqamətində həyata keçirilən uğurlu əməliyyat-axtarış tədbirlərindən danışıb. Tədbirdə narkotiklərin satışı, alışı və istifadəsi ilə məşğul olanların məsuliyyətə cəlb olunmaları üçün birgə səylərin vacibliyi önə çəkilib, sağlam və etibarlı gələcəyin qurulması baxımından belə maarifləndirici görüşlərin davamlı təşkilinin zəruriliyindən bəhs edilib. Sonra narkomaniyanın fəsadlarından bəhs edən sosial çarxlar nümayiş etdirilib.



Nərimanov rayonundakı 82 nömrəli tam orta məktəbdə Rayon Polis İdarəsinin təşkilatçılığı ilə keçirilən tədbirdə də iştirakçılar "Narkomaniyaya yox" deyiblər. Rəis müavini Bəxtiyar Abbaszadə narkomaniyadan gəncləri, uşaqları qorumaq və onunla kəsərli mübarizə aparmaq üçün polisin keçirdiyi əməliyyat tədbirlərindən söhbət açıb.

Qeyd olunub ki, narkomaniyaya düçar olmuş şəxs narkotik əldə etmək xatirinə yalana, oğurluğa, hətta adam öldürməyə belə əl atır. Son zamanlar törədilən cinayətlərin əksəriyyəti narkomanların "əl işidir". Aparılan təhlillər onu göstərir ki, bütövlükdə narkotizmlə cinayətkarlıq arasında qarşılıqlı əlaqə və bilavasitə asılılıq mövcuddur.

Tədbirdə çıxış edənlər narkomaniyanın təkcə fərdi ziyanını deyil, onun cəmiyyət üçün təhlükə mənbəyi olmasını, sağlam mühiti, sosial əlaqələri məhv etməsini, bir sözlə, inkişafın qarşısını almasını təəssüf hissi ilə vurğulayıb, narkomaniyaya qarşı mübarizənin təkcə dövlət qurumlarının yox, hər bir fərdin vətəndaşlıq məsuliyyəti olduğunu diqqətə çatdırıblar.

*"Polis"*

# Təbliğat həm də "Açıq qapı"dan başlayır

## Gələcəkdə polis olmaq istəyənlər qonaq gəlmişdi

DİN-in Polis Akademiyasının növbəti "Açıq qapı"sından bu dəfə paytaxtın Nərimanov rayonundakı M.Şəhriyar adına 193 və S.Yolçuyev adına 207 nömrəli tam orta məktəblərin şagirdləri keçiblər. Qonaqlar Akademiyada yaradılmış təhsil mühiti, o cümlədən tədris korpusları, kriminalistik təlim şəhərciyi, mü-



hazirə zalları, elektron kitabxana, "İnformasiya təhlükəsizliyi" fakültəsinin ən müasir texniki avadanlıqlarla təchiz olunmuş elmi-tədqiqat laboratoriyası, təlim mərkəzi, auditoriyalar, kursant yeməkxanası, qapalı atıcılıq tiri və idman şəhərciyi ilə tanış olublar.

Əməkdaşlar tərəfindən Polis Akademiyasının tarixi, kursantların maddi, sosial təminatları və Akademiyada təhsilin üstünlükləri barədə geniş məlumatlar verilib, həmçinin rəsmi saytda yerləşdirilmiş "Virtual Akademiya" platformasından istifadə edərək tədris müəssisəsi ilə tanış olmaq imkanı da şagirdlərin diqqətinə çatdırılıb.

Şagirdlərə Polis Akademiyası haqqında məlumatları özündə əks etdirən lifletlər paylanılıb, onları maraqlandıran suallar cavablandırılıb və xatirə şəkilləri çəkilib.

# Vətəndaş məmnundur

## Məktublar xidmətimizdən razılığın əlamətidir

Vətəndaş Fəridə Rüstəmova DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda mülki öhdəlikdən yayınan şəxsin tapılaraq aidiyyəti üzrə təhvil verilməsinə görə Biləsuvar Rayon Polis Şöbəsinin rəhbərliyinə və aidiyyəti əməkdaşlara minnətdarlığını bildirir.

Vətəndaş Asif Abdullayev öz təşəkkür məktubunda müraciəti ilə əlaqədar Masallı Rayon Polis Şöbəsində aparılan araşdırmanın gedişindən məmnunluğunu ifadə edir.

Vətəndaş Vüsal İslamov DİN-in "Instagram" səhifəsinə mesajında üzləşdiyi dələduzluq faktı ilə bağlı "102" Xidməti-zəng Mərkəzinə etdiyi müraciətinə operativ baxıldığına, obyektiv araşdırılaraq qısa müddətdə müsbət həll edildiyinə və ona dəymiş maddi ziyanın tam ödədirilməsində göstərilən köməkliyə görə Nəsimi Rayon Polis İdarəsinin əməkdaşlarına minnətdarlığını bildirir.

# Sürücülər ən çox bu qaydaları pozur

## Polis paytaxt yollarında hansı tədbirləri görür?

Yolların yüklənməsi və sürücülərin qaydalara tam əməl etməməsi bəzi ciddi problemlərə yol açır.

Şəhər sakinlərinin və sürücülərin qarşılaşdığı əsas çətinliklərdən biri yol hərəkəti qaydalarının pozulmasıdır. Bəs bunun qarşısını almaq üçün hansı tədbirlər görülür?

Bakı Şəhər DYP İdarəsindən bildirilib ki, bu məqsədlə paytaxtın inzibati ərazisinə düşən küçə və prospektlərdə hərəkət iştirakçılarının rahat, fasiləsiz və təhlükəsiz hərəkətinin təmin olunması, eləcə də baş verə biləcək yol nəqliyyat hadisələrinin qarşısının alınması istiqamətində preventiv tədbirlər həyata keçirilir.

Lakin görülən tədbirlərə baxmayaraq, bəzi yol hərəkət iştirakçıları tərəfindən yol hərəkəti qaydaları kobud şəkildə pozulur ki, bu da öz növbəsində yollarda sıxlığın yaranmasına, yol nəqliyyat hadisələrinin baş verməsinə səbəb olur. Əsas qayda pozuntuları manevretmə, dayanma və durma, yolayırıcını keçmə, sükan arxasında mobil telefondan istifadədir.

Ani diqqətsizliyin ağır yol nəqliyyat hadisələrinin baş verməsinə səbəb olmaması üçün polis sürücüləri qaydalara əməl etməyə çağırır.

# Ağrıdan baxanda Vətən görünür

## İrəvan tariximizin, yurdumuzun bir parçasıdır

Bakı, Gəncə, Bərdə, Şəki, Dərbənd, Naxçıvan, Təbriz, Ərdəbil şəhərləri kimi, İrəvan şəhəri də bizə bir o qədər əziz və doğmadır. Təəssüflər olsun ki, bu tarixi yurdumuz 1918-ci ildə Cənubi Qafqazda ilk erməni dövləti yarandıqdan sonra Ermənistanın paytaxtına çevrilib.

İrəvan Ağrı vadisinin şimal-şərq hissəsində yerləşir. Qədimdən yalnız Azərbaycan türklərinin məskun olduqları bu şəhərin adı orta əsr yazılı mənbələrində Rəvan, İrəvan, İrivan kimi qeyd edilmişdir. XIX əsrin əvvəllərində rus qoşunları tərəfindən işğalından sonra şəhərin adı Erivan (Эривань) kimi yazılmış, daha sonralar, XX əsrdə tarixdə ilk dəfə erməni dövlətinin paytaxtına çevrildikdən sonra Yerevan adlandırılıb.

İrəvan şəhəri və onun ətrafındakı hidronimlərin (çay, göl, bulaq və s.), oronimlərin (dağ, dərə, aşırım, düzənlik və s. ), oykonimlərin (yaşayış məntəqələri, küçələr, məhəllələr və s.) mütləq əksəriyyətinin Azərbaycan türkcəsində olması bir daha onu göstərir ki, bu ərazi azərbaycanlıların qədim yaşayış məskənlərindəndir.

Quru subtropik iqlim zonasında yerləşən İrəvan şəhəri, olduqca münbit və bərəkətli torpaqlarla əhatə olunub.

Məşhur İrəvan bağları və bostanları İrəvan xanlarının müxtəlif dövrlərdə Zəngi və Gədər çaylarından çəkdirdikləri kanallarla suvarılıb. Zəngi çayından şəhərdəki və ətrafdakı bağları suvarmaq üçün 4 kanal – Mamrə, Abuhəyat, Dəlmə və Təzəkənd kanalları çəkilmişdi. Şəhərin cənubundakı bağlar isə (Qırxbulaq) çayından çəkilən kanal və arxlarla suvarılırdı.






Müasir İrəvan şəhərində ermənilərə məxsus yaşı 200 ildən artıq olan tarixi-memarlıq abidəsi mövcud deyil.

XIX əsrin əvvəllərində İrəvandakı Culfa, Gürcü, Zərrabi xan (Sərrafxana), Tahir, Sulu, Susuz, Avşar, Hacı Əli karvansaralarında üst-üstə 851 köşk mövcud olub.

Şəhərin mərkəzi hissəsində Böyük Meydan yerləşirdi. Ağır yükləri çəkmək üçün Qantar tərəzisi, yüngül yükləri çəkmək üçün Mizan tərəzisi bu meydanda idi.

Digər meydanlar Xan bağı, Zal xan, Hüseynəli xan, Fəhlə bazarı meydanı adlanırdı. Pənah xan Makinskinin imarətinin yerləşdiyi ərazi isə son vaxtlaradək Pənah xan meydanı adlanırdı.

İrəvanda Şərq memarlıq üslubunda 8 hamam - Şəhər, Zal xan, Şeyxülislam, Mehdi bəy, Hacı Bəyim (sonuncu İrəvan xanının qardaşı Həsən xanın qızı), Təpəbaşı, Hacı Əli, Hacı Fətəli, Kərim bəy hamamları mövcud idi.

XIX əsrin sonları, XX əsri əvvəllərində İrəvan şəhərində adları azərbaycanca səslənən onlarla küçə vardı. Qədim İrəvanda bu küçələr məşhur idi: Şəriət, Karvansara, Qala, Sultan, Çölməkçi, Naxçıvan, Bazar, Daşlı, Paşa xan, Qəriblər ocağı, Dəyirmanlı, Məscid, Fəhlə bazarı, Təpəbaşı, Qəbiristan, Naib, Mir Cəfər, Rüstəm xan, İmamrə, Korbulaq, Bəy, Kətan, Dükanlı, Sallaxlar və s.

İrəvanda və onun ətrafında mövcud olan 1473 bağdan 772-si şəhərin içərisində idi. Sərdar bağı, Dəlmə, Abbasdərəsi, Abuhəyat, Keşağlı, Qızılqala, Dərə bağı, Səvzikəri, Xosrovabad, Söyüdlü, Qul dərəsi, Kənkan, Kərpicxana bağlarının ad-sanı İrəvandan çox-çox uzaqlara yayılmışdı. İrəvan bağlarının bəzi məhsulları qurudulmuş şəkildə Avropaya ixrac edilirdi.

İrəvan dəyirmanları ilə də məşhurdur. Şəhərdə 45 dəyirman vardı. Hacıbəyim, Məhəmməd xan, Sübhanqulu xan, Qala, Xan, Doqquz dəyirmanları azərbaycanlılara məxsus idi.

Tarixi ədəbiyyatda İrəvan şəhərində 15-ə yaxın məscidin və iki erməni kilsəsinin adları keçir. Göy məscid (yaxud Hüseynəli xan), Qala məscidi (Sərdar, yaxud Abbas Mirzə), Şah Abbas, Təpəbaşı, Zal xan (yaxud Şəhər), Sərtib xan, Hacı Novruzəli bəy, Dəmirbulaq, Hacı Cəfər bəy, Rəcəb paşa, Məhəmməd Sərtib xan, Hacı İnam məscidlərinin minarələri uzaqdan İrəvanın müsəlman şəhəri olmasını nişan verirdi.

Azərbaycanlılara qarşı törədilən 1905-1906-cı illər kütləvi qırğınları, 1918-1920-ci illər soyqırımı, 1948-1953-cü illər və 1988-1989-cu illər deportasiyaları İrəvan şəhərinin azərbaycanlı simasını ermənilərin xeyrinə tamamilə dəyişdirdi. İrəvan şəhərindən azərbaycanlıların maddi-mədəniyyət izlərini silən, ardınca azərbaycanlı etnik kimliyini yox edərək monoetnik erməni şəhəri yaratmağa nail olan ermənilər indi də tarix kitablarından, dərsliklərdən azərbaycanlıların izini silməyə çalışırlar.

Bütün yuxarıda deyilənlərdən belə qənaət hasil olur ki, indiki Ermənistan Respublikasının ərazisinin və onun paytaxtı İrəvanın ermənilərə heç bir aidiyyəti olmamışdır. Bu ərazi qədim türk-oğuz yurdudur.

*"Polis"*




…"Elə bil yer üzünü quyuya sallamışdılar, bir işıq gözləyirdi ki, tutub çıxsın.

Sovrulub azadlığından balıq külüyü kimi daşların arasına girən deyinə-deyinə, sına-sına sızan su, bir vaxtlar başı üstündə sevinclə, inamla dəyirman işlədən sağlam, gümrah bir çayın son nəfəsi kimi axırdı.

Amma belə deyildi, dəyirmançının əli ilə kəsilənəcən, qazana girib bişənəcən, kabab olub qızaranacan, toğlular ayaq üstə can verirdilər.

Dəyirmançının əlindəki bıçaq göz gətirmişdi, iti, iliyə işləyən bir iştahayla yuxarıdan aşağı toğluya baxırdı.

Temir müəllimin mədəsi dilənçi ovucu kimi açılmışdı.

Dəyirmançının dəyirman daşına çəkdiyi bıçağın səsi naxırın qabağını kəsirdi"…

Bu fikirlər Azərbaycan ədəbiyyatının tanınmış imzalarından birinin ona şöhrət gətirən əsərində yer alır. Yazıçının və əsərin adını yazan şəxsin hədiyyəsi kitab olacaq.

*"WhatsApp":*
*+994 55-875-16-39*

# Güclülər qalib gəldi

## Onlar cinayətkarlıqla mübarizədə olduğu kimi idmanda da öndədirlər

Daxili İşlər Nazirliyinin əməkdaşları arasında DİN-in İdman Cəmiyyətində güc çoxnövçülüyü üzrə birincilik keçirilib.



Martın 14-ü və 15-də keçirilən birincilikdə 10 komandanın tərkibində 60 asayiş keşikçisi qol güləşi və ağırlıq daşlarının qaldırılması üzrə güclərini sınayıblar. İki idman növünün cəmində Naxçıvan MR Daxili İşlər Nazirliyinin komandası rəqiblərini qabaqlayaraq birinci yerə layiq görülüb. Əlahiddə Çevik Polis Alayının komandası ikinci, DİN Daxili Qoşunlarının komandası isə üçüncü olub.

Keçirilən birinciliyin məqsədi polis əməkdaşları arasında fiziki gücü, dözümlülüyü və dayanıqlılığı inkişaf etdirmək və ölkə birinciliyində çıxış edəcək heyəti formalaşdırmaqdır.

Sonda qalib komandalara və yüksək nəticə əldə edən əməkdaşlara diplomlar, qiymətli hədiyyələr təqdim edilib.

# Görünmədən görmək, ölmədən dönmək

## Sükutu pozmaq onlar üçün an məsələsidir

### Dünyanın ilk casusları: yəhudilər

"…Musa Tanrının əmriylə onları Faran səhrasından Xanaan torpağına göndərərkən dedi: "Bu cənub ölkəsinə gedin, dağa çıxın və ətrafa baxın, burada hansı xalqın yaşadığını, onların güclü, yaxud zəif, azsaylı, ya çoxsaylı olduğunu, böyük evlərdə, yoxsa daxmalarda yaşadıqlarını, bu torpaqlarda ağac bitib-bitmədiyini öyrənin…" Dörd səmavi kitabdan biri hesab olunan və yəhudilərin peyğəmbəri Musaya göndərilmiş "Tövrat"dakı bu sətirlərə söykənib demək olar ki, dünya tarixində bilinən ilk casuslar yəhudilər olub.

Bəzi qaynaqlarda qədim Şərqdə, xüsusilə Misirdə casusluq şəbəkəsinin olması ilə bağlı məlumatlara da rast gəlinir. Belə ki, böyük dövlətləri idarə eləmək üçün fironlar casuslardan və kəşfiyyat dəstələrindən istifadə edirdilər.

### İlk peşəkar casuslar: çinlilər

Tarixdə məlum olan ilk peşəkar casus şəbəkəsi çinlilərə məxsusdur. Çinlilər casusluğun nəzəri əsaslarına möhkəm yiyələnir, ciddi şəkildə yetişdirilmiş və təlim keçmiş casuslardan istifadə edirdilər.

Çinlilər tarixdə ilk dəfə casusluq haqqında yazılı mənbə yaradıblar. Casusluq ilk dəfə məhz Çində nəzəri cəhətdən işlənib və nəzəriyyə şəklində ortaya qoyulub. Dünya tarixində məşhur olan ilk məxfi xidmət nəzəriyyəçisi Sun Szının "13 ehkam" adlı hərbi traktatı bu gün də bu sahə ilə maraqlananlar üçün zəruri vəsait sayılır. Sun Szının traktatı sübut edir ki, qədim Çində yüksək səviyyədə formalaşmış gizli diplomatiya, strateji və taktiki kəşfiyyat dünya tarixində bir ilk olub.

### Günümüzə gəlib çatan traktat

Buna görə də çinlilər ilk peşəkar casusluq şəbəkəsinin və nəzəriyyəsinin banisi hesab olunur. Sun Szı, təxminən eramızdan əvvəl 700, yaxud 500-cü illərdə yaşayıb yaratmışdır. O, casusluq haqqında yazır: "Casuslara pul xərcləməkdən çəkinməməlisən. Qoyduğun xərc mütləq müharibədən qalib çıxdıqdan sonra sənə qayıdacaqdır".

Sun Szı tarixdə ilk dəfə casusları kateqoriyalara bölüb. O, casusları 4 kateqoriyaya ayırır: - Yerli casuslar - ölkə daxilində fəaliyyət göstərib daxildə baş verən hadisələr barədə məlumat hazırlayırlar; - Düşmən tərəfindən göndərilmiş və ikili casusluğa hazırlananlar. Sun Szı ələ keçən düşmən casuslarını öldürməyi məsləhət bilmir. Onları yenidən hazırlayıb qarşı tərəfə göndərməyi məsləhət görür; - "Gedər-gəlməz" casuslar - bu tip casuslar qarşı tərəfə keçib dezinformasiya verənlərdir ki, məsələnin üstü açılan kimi onlar edam olunurdular; - "Qayıdan" casuslar.

Bu tipə aid olan casuslar düşmən tərəfə keçib lazım olan informasiyanı əldə edib geriyə qayıdanlardır. Belə casusların xidməti çox vacib idi. Bu tipə aid olan casuslar yüksək peşəkarlığa malik olurdular.

Ümumiyyətlə, tarixə bəlli olan ilk peşəkar casuslar çin xalqının nümayəndələri idi. Onların türk ordusu və dövləti içərisindəki qurduqları şəbəkə ən güclülərdən sayılır.

*Aytən Tahirova*

# Alimlərdən daha bir yenilik

## Süni intellektlə bioloji yaşın dəqiq təxmini artıq mümkündür

Osaka Universitetinin alimləri süni intellektə əsaslanan yeni model işləyib hazırlayıblar. Bu metod cəmi beş damcı qan vasitəsilə insanın bioloji yaşını dəqiq təxmin etməyə imkan verir.



Tədqiqat yaşa bağlı sağlamlıq risklərinin erkən aşkarlanmasına töhfə verə biləcək fərdi sağlamlıq monitorinqi sahəsində mühüm addım hesab olunur. Bu yeni metod 22 əsas steroid hormonu və onların qarşılıqlı təsirini təhlil edərək bioloji yaşın daha dəqiq müəyyən edilməsini təmin edir. Ənənəvi yanaşmalardan fərqli olaraq, bu model steroid səviyyələrinin nisbətlərinə fokuslanaraq fərdi sağlamlıq göstəricilərini daha obyektiv qiymətləndirir.

Tədqiqatın əsas nəticələrindən biri kortizol hormonunun artmasının bioloji yaşlanmanı sürətləndirməsi ilə bağlıdır. Kortizol səviyyəsinin ikiqat artması bioloji yaşın təxminən 1,5 dəfə yüksəlməsinə səbəb olub ki, bu da xroniki stresin qocalma üzərində ölçüləbilən təsirini sübut edir.

Tədqiqatçılar hesab edirlər ki, yeni model fərdiləşdirilmiş sağlamlıq monitorinqini inkişaf etdirərək xəstəliklərin erkən aşkarlanmasını və qocalmanı yavaşlatmaq üçün fərdi sağlamlıq strategiyalarının hazırlanmasını təmin edə bilər.

Gələcəkdə modelin daha geniş biomarkerlərlə təkmilləşdirilməsi planlaşdırılır.

# 125 il əvvəl belə olub

## Dövr, zaman dəyişsə də imtahan əsas şərtdir

Britaniya, Almaniya və Fransa kimi ölkələrdə XIX əsrin sonuncu onilliyində ortaya çıxan sürücülük vəsiqələri 1900-cü ildə çar Rusiyasına da gəlib çatdı. Bu dövrdə hələ ki, Azərbaycan dövləti yox idi.

XIX əsrin sonlarında başlayan neft bumu sayəsində inkişaf etmiş şəhərlərdən birinə çevrilən Bakı da dünyada baş verən yeniliklərə şahidlik etdi.

XX əsrin əvvəllərindən Bakı küçələrində Avropa avtomobilləri görünməyə başladı. Təbii ki, avtomobili hər adam ala bilmirdi. Avtomobili olanlar isə özləri ilə Avropadan və ya Peterburqdan sürücü də gətirirdilər.

Beləliklə, 1908-ci ildən etibarən Rusiyanın Qafqazda ən inkişaf etmiş şəhəri olan Bakıda sürücülük vəsiqəsi tələbi ortaya çıxdı. Sürücü imtahanda avtomobili idarə və təmir etməyi bacardığını, həmçinin, şəhəri tanıdığını sübut etdikdən sonra vəsiqəni ala bilirdi. 1911-ci ildə Bakıdan Peterburqa göndərilən rəsmi hesabatda şəhərdə 1910-cu ildə 24, 1911-ci ildə isə 36 avtomobilin olması göstərilirdi.

Sovet dövrünün statistikasına görə, ADR-in süqutundan sonra 1920-ci ildə ölkədə 300-ə qədər avtomobil olub.

Maraqlı məqamlardan biri də budur ki, 1936-cı ildən etibarən SSRİ-də avtomobillə bağlı statistika məxfiləşdirildi.

Bəzi məlumatlarda isə ölkəmizin 1991-ci ildə adambaşına düşən avtomobil sayına görə qonşularından 2 dəfə geri qaldığı qeyd olunur.

POLİS

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.

Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.

Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.

REDAKTOR:
HAFİZ TƏMİROV

Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 11257

Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az

Qiyməti 40 qəpik